# İQTİSADİYYAT VƏ İDARƏETMƏ SAHƏSİNDƏ TƏDQİQATÇILARIN BEYNƏLXALQ ELMİ KONFRANSI

## MÜƏLLİFLƏR ÜÇÜN YAZI QAYDALARI

- İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransına yalnızca aşağıda qeyd olunan şərtlərə əməl olunan məruzələr qəbul olunacaqdır.
- Konfransa yalnız daha əvvəl başqa hər hansı bir yerdə nəşr və məruzə olunmamış orjinal tədqiqat işləri göndərilməlidir. Təqdim olunan məruzələr konfransın elm komitəsi tərəfindən qapalı dəyərləndirmə sistemi vasitəsi ilə dəyərləndiriləcəkdir. Yazı qaydalarına, konfrans tələblərinə uyğun olmayan tədqiqat işləri qəbul olunmayacaqdır.
- Konfransa təqdim olunacaq tədqiqat işləri konfrans saytında qeydiyyatdan keçərək sayt vasitəsi ilə göndəriləcəkdir. Saytdan qeydiyyatdan keçərkən qeyd olunan məlumatlar ilə tədqiqat işindəki şəxsi məlumatlar uyğunluq təşkil etməlidir.
- Eyni zamanda hansı dildə göndərilməsindən asılı olmayaraq tədqiqat işləri dil qaydalarına uyğun və tam anlaşılan səviyyədə olmalıdır.
- Tədqiqatın Giriş hissəsi əsas hissəsidir. Bu hissədə müəlliflər tədqiqatın mövzusunun aktuallığını və onun elmi baxımdan önəmini izah edirlər. Tədqiqatın əsas məqsədi, tədqiqatın vəzifəsi, metodologiyası, məhdudiyyətləri və tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr haqqında məlumat da giriş hissəsində yer alır.
- Tədqiqatın girişdən sonrakı hissəsi əsas və alt başlıqlara bölünərək mövzu haqqında ətraflı nəzəri məlumatlar və ədəbiyyat araşdırmasını özündə ehtiva edir. Məqalədə sonda nəticə hissəsi olmalı və bu hissədə müəllif(lər) tədqiqatın yeni nəticələrini ortaya qoymalı, bu mövzuda daha əvvəl aparılmış tədqiqatlarla uyğunluğunu qeyd etməli və gələcəkdə bu mövzuda aparılacaq tədqiqatlar üçün yol göstərməlidir.
- Konfransa xüsusilə empirik və iqtisadi analiz metodları istifadə olunaraq nəticələri aydın bir şəkildə ifadə olunan, dünya və ölkə iqtisadiyyatı üçün önəmli olan mövzularda tədqiqat işləri göndərilməlidir.
- Göndəriləcək məruzələr .doc, .docx sonluqlu MS Office Word fayl formatında hazırlanacaq səhifə ölçüləri isə sol kənar – 2.5 cm, sağ kənar 1.5 cm, alt və üst – 2.0 cm şəklində olmalıdır.
- Təqdim olunacaq məruzənin səhifə sayısı minimum 10 maksimum 15 səh. ola bilər.

- Konfransa təqdim olunacaq elmi işinizin başlığı Times New Roman 14 şrifti ilə, sözlərin yalnız ilk hərfləri böyük olmaqla, Bold, Center formatında yazılır;
- Müəllifin məlumatları (adı, soyadı, universiteti emaili) Times New Roman 12 şrifti, Bold, Center formatında məruzə başlığının altında yazılır;
- Hər bir məruzənin yazıldığı dildə xülasəsi ilə yanaşı ingilis dilində də xülasəsi olmalıdır. Xülasələr minimum 150, maksimum 200 söz olmaqla Times New Roman 10 şrift, sətir aralığı 1.15, justified formatında yazılır.
- Tədqiqat işində eyni zamanda tədqiqatın aid olduğu sahələrə uyğun JEL kodları yer almalıdır. JEL kodları haqqında ətraflı məlumat üçün http://www.aeaweb.org/jel/jel_class_system.php
- Tədqiqatın minimum 3, maksimum 5 sözdən ibarət açar sözləri yer almalıdır. Açar sözlər eyni zamanda ingilis dilində xülasədən sonra da qeyd olunmalıdır.
- Tədqiqatın əsas mətn hissəsi Times New Roman 12 şrift, iki yana yaslanmış (Justified) 3-Sətir aralığı - 1.15, Paraqraf aralığı öncə və sonra 6 pt, Hər başlıqdan sonra bir sətr boşluq buraxılacaq şəkildə yazılmalıdır.
- Tədqiqatın əsas başlıqlar Times New Roman 12 şrifti ilə sözlərin baş hərfləri böyük, Bold, sola yaslanmış ( Align Left), alt başlıqları isə Times New Roman 12 şrifti ilə yalnız başlığın ilk hərfi böyük, Bold, sola yaslanmış ( Align Left) şəklində yazılmalıdır.
- Cədvəl, şəkil və qrafiklərin daxili yazıları, başlıqları və alt şərhləri 1,0 aralıqlı sətirlə, Times New Roman 10 şrifti ilə, başlıqları isə yalnızca ilk hərfi böyük olmaqla 10 şriftlə sola yaslanmış (align left) bold yazılmalıdır.
- Tədqiqat işində istinadlar APA stilinə uyğun olaraq qeyd olunur. Yəni istinad cümlənin sonunda mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilir. İstinaddan sonra nöqtə qoyulur. Məruzə içərisində minimum 15 istinad göstərilməli və minimum 10 ədəbiyyatdan istifadə olunmalıdır.

**İstinad nümunə**:

Tək müəllifli olduğu halda (Məmmədov, 2007), (Pretty, 1994).

İki müəllifli olduğu halda – ( Əliyev və Osmanov, 2014)., (Krugman & Stiglitz, 2010).

Üç və beş müəllifli olduğu halda - əgər ilk dəfə istinad verilirsə - (Kernis, Cornell, Sun, Berry, and Harlow, 1993) , təkrar istinad verildikdə isə (Kernis et., 1993)

Altı və daha çox müəllifli olduqda isə - (Harris et al, 1996), (Məmmədov vd., 2019)

Əgər istinad olunan bir təşkilat vəya dövlət qurumudursa ilk istinadda olduğu kimi istinad olunur, sonrakı istinadlarda isə əgər çox bilinən bir qurumdursa qısaltması qeyd olunur – ilk istinad ( Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2014) , ikinci istinad (ARDSK, 2014)

Əgər bir paragrafda birdən çox mənbəyə istinad verilmişdirsə bunlar əlifba sırasına görə düzülməlidir və əsərlər nöqtəli vergül ilə bir birindən ayrılmalıdır. - (Akar, 2010; Çalışkan, 2008; Dinçer ve Kolaşin, 2009; Engin ve Demir, 2009; Tunç, 2007)

Eyni soyada sahib olan müəllifləri qarışdırmamaq üçün adın ilk hərfi də istifadə olunur - (E. Johnson, 2001; L. Johnson, 1998)

Ədəbiyyatlar Times New Roman 12 şrifti, öncə və sonra 0 boşluq və sırayla nömrələnir.

## CƏDVƏL VƏ QRAFİKLƏRİN GÖSTƏRİLMƏ FORMASI

**Cədvəl 1: Kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtsadi gostəriciləri**

| | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|
| Yaradılmış əlavə dəyər, milyon manat | 1 346,5 | 1 466,2 | 1 437,0 | 1987.8 |
| Ümumi mənfəət, milyon manat | 122,8 | 165,4 | 175,4 | … |
| İşçilərin orta illik sayı, min nəfər | 95,5 | 109,0 | 115,0 | 87,6 |
| Orta aylıq nominal əmək haqqı, manat | 263,3 | 303,5 | 348,0 | 302,1 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**,** www.stat.gov.az (20.11.2015)

**Qrafik 1: Beynəlxalq turist axını**




**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (15.02.2018)

# ƏDƏBİYYATLAR

1. Berndt, T. J. (2002). Friendship quality and social development. Current Directions in Psychological Science, 11, 7-10.
2. Wegener, D. T. ve Petty, R. E. (1994). Mood management across affective states: The hedonic contingency hypothesis. Journal of Personality and Social Psychology, 66, 1034-1048.
3. Kernis, M. H., Cornell, D. P., Sun, C. R., Berry, A., Harlow, T. ve Bach, J. S. (1993). There's more to self-esteem than whether it is high or low: The importance of stability of self-esteem. Journal of Personality and Social Psychology, 65, 1190-1204.
4. American Psychological Association. (2003).
5. Berndt, T. J. (1999). Friends' influence on students' adjustment to school. Educational

Psychologist, 34, 15-28.
6. Berndt, T. J. ve Keefe, K. (1995). Friends' influence on adolescents' adjustment to school. Child Development, 66, 1312-1329.
7. Berndt, T. J. (1981a). Age changes and changes over time in prosocial intentions and behavior between friends. Developmental Psychology, 17, 408-416.
8. Berndt, T. J. (1981b). Effects of friendship on prosocial intentions and behavior. Child Development, 52, 636-643.
9. Harlow, H. F. (1983). Fundamentals for preparing psychology journal articles. Journal of Comparative and Physiological Psychology, 55, 893-896.

**ƏDƏBİYYAT SİYAHISINDAN SONRA MƏQALƏNİN PLAGİAT HESABATI ƏLAVƏ OLUNMALIDIR. PLAGİAT FAİZİ 25 % - DƏN ARTIQ OLMAMALIDIR!**

**DİQQƏT: YUXARIDA QEYD OLUNAN QAYDALARA UYĞUN YAZILMAMIŞ MƏRUZƏLƏR KONFRANSA QƏBUL OLUNMAYACAQDIR.**